https://doi.org/10.59849/3006-1342.2025.1.18
UOT 94(479.24).

*Zəhra Rüstəm qızı İslamova*
*Tarix üzrə fəlsəfə doktoru*
*Bakı Dövlət Universiteti*
*E-mail: zehra.islamova.80@mail.ru*
*https://orcid.org/0000-0002-9530-4263*

# QARAQOYUNLULARIN DİNİ MƏNSUBİYYƏTİNƏ DAİR

*Orta əsrlərdə Azərbaycanın hakim sülalələri siyasi, iqtisadi, sosial və mədəniyyət istiqamətində özünəməxsus fəaliyyətləri, yönləndirdikləri siyasətləri vardı. Azərbaycanda XV əsrdə hakimiyyətə gələn oğuz-türk sülalələrindən biri Qaraqoyunlular olmuşdu. Ümumiyyətlə, oğuz-türklərin dini görüşləri, islama qədərki etiqadları, islamı necə, nə vaxt, hansı siyasi şəraitdə qəbul etmələri, türk qövmləri arasındakı təriqət və cərəyan fərqləri, müəyyən qism köhnə inancların saxlanması müasir Azərbaycan tarixçiliyinin qarşısında duran əsas araşdırma mövzusularından biri hesab edilir. Dövrün ilkin qaynaqlarında, o cümlədən tarixi ədəbiyyatlarda oğuz-türk sülalələri, eləcə də Qaraqoyunluların dini mənsubiyyət məsələsi açıq qalmış problemlərdən biridir. Tədqiqat zamanı dövrün məxəzlərinə və tarixi ədəbiyyatlara əsasən Azərbaycan dövlətçiliyində əsas rol oynamış Qaraqoyunluların, eləcə də bölgənin siyasi tarixində mühüm yer tutan oğuz türklərinin ilk yurd yerləri olan Mərkəzi Asiya, ardınca Kiçik Asiyada və Azərbaycanda konfessional vəziyyət, islamın qəbulunadək dini inancları və islama keçidləri araşdırılmışdı. Əsas diqqət Qaraqoyunluları Van ətrafında yaratdıqları bəylik və Azərbaycanda siyasi hakimiyyətə gəldikdən sonrakı dönəmlərdə mənsub olduqları dini etiqadlarını, təriqət və məzhəblərini araşdırmağa, buna səbəb olan siyasi, iqtisadi, sosial amilləri öyrənməyə, həmçinin. Qaraqoyunlu sülalə üzvlərinin təriqət mənsubiyyəti və dövlət siyasətində əksolunması və təsir qüvvələrinin müəyyən edilməsinə cəhd edilmişdi.*

*Açar sözlər:* Azərbaycan, oğuz türkləri, qaraqoyunlular, dini təriqət, şiəlik, Mərkəzi Asiya

## *Giriş*

Azərbaycanın orta əsrlər dövrünün dövlətçilik taraixinə nəzər salsaq, hakimiyyətdə olan hər bir sülalənin müxtəlif istiqamətlərdə nəticə və uğur əldə etmək məqsədilə formalaşmış siyasəti olurdu ki, bununla mərkəzi hakimiyyət hökmran olduğu dövlətin tərəqqisini, yeni ərazilərin əldə edilməsini, sülalə üzvlərinin hökmranlığını və sülalə uzunömürlülüyünü təmin edirdi. Hakim sülalələr tətbiq etdikləri siyasətlərində dini aspektlərə daha çox diqqət edirdilər, belə ki, dini istiqamətdə yürüdülən siyasət mərkəzi hakimiyyət orqanlarının fəaliyyəti, həmçinin dövlətin və tabe ərazilərin idarə edilməsində mühüm rol oynayırdı. Dövlətin dini siyasəti mərkəzi hakimiyyəti və hökmdarı qorumaqla yanaşı, həm də sülalənin siyasi və iqtisadi fəaliyyətinə, digər sosial zümrələr ilə münasibətlərinə haqq qazandırmış olurdu. Orta əsrlər dönəmində türk sülalələrində, əsas etibarilə, ordu və hərbi ilə bağlı məsələlər daha aktual olub, dini dünyagörüşü istiqamətində Göy tanrıya inam hakim idi. Bunu nəzərə alsaq, islam-şəriət qaydaları üzərindən din və siyasət birliyinin tədricən formalaşmasını və bu prosesin başa çatmasının orta əsrlər dövrünün sonlarına təsadüf etdiyini görərik.

Mərkəzi Asiyadan qərbə doğru hərəkət edən türk mənşəli qövmlər arasında qaraqoyunlular özlərinin hakimlik iddiaları ilə daha çox seçilirdilər. Dövlət yarananadək Qaraqoyunlu oğuz-türk sülaləsinin formalaşmış hər hansı dini siyasəti olmamış və tədricən

yaranmış, inkişaf etmişdi. Bu oğuz-türk sülaləsinin dini inanclarının kökü şamanizmə, tenqriçiliyə söykənsə də, mərhələli şəkildə onlar islam dinini qəbul etmişdilər. Hərbicil qaraqoyunlu sülaləsi istər tayfa birliyi, istər bəylik, istərsə də dövlət yaratdıqdan sonra daha çox siyasi mübarizəyə və hərbi yolla hakimiyyətlərini qorumağa diqqət yetirdiklərinə görə, ilkin məxəzlərdə, eləcə də dövrə dair əsərlərdə bu tayfa birliyinin siyasi-hərbi tarixi, ordu fəaliyyəti, idarəedici və icraedici funksiyalar daşıyan vəzifələr, bu istiqamətdəki təyinatlar qeyd edilmiş və münasibət bildirilmişdi. Lakin birbaşa dini mənsubiyyətləri, məzhəbləri, bununla bağlı yürütdükləri dini siyasət, həmçinin bu yöndə hakim sülalənin atdığı addımlar diqqətdən kənarda qalmış və ümumiyyətlə qaraqoyunlu sülaləsinin dini dünyagörüşünün yaranması, dini mənsubiyyəti, aid olduqları məzhəbləri, təriqətləri haqqında, demək olar ki, məlumat yoxdur. Bununla belə, qaraqoyunluların dini mənsubiyyəti, bu sülalənin dini siyasəti, bu istiqamətdə fəaliyyəti, hökumətdə yer alan dini vəzifələr, onların hüquq və səlahiyyətləri, funksiyaları, həmin vəzifələrə təyin olunmuş şəxslərin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu dönəmdə sülalə liderləri tərəfindən vahid dini siyasətin formalaşdırılması məqsədilə bir sıra mühüm addımlar atılsa da, təəssüflər olsun ki, nə bəylik, nə də dövlət dönəmində hakimiyyətdə olan Qaraqoyunlu sülalə üzvlərinin dini siyasət istiqamətdəki fəaliyyətləri tam şəkildə mənbələrdə əks olunmayıb. Araşdırma zamanı qeyd olunan məsələni müəyyən etmək məqsədilə ilkin məxəzlərdə olan faktların bir yerə toplanaraq təhlil edilməsi və müqayisəli analizlər hesabına tarixi gerçəkliyin əldə edilməsinə cəhd edilmişdi.

**1. Qaraqoyunluların islamı qəbul etməsi.** Rəşidi xəlifələr dövründə ərazilərin genişləndirilməsi və yeni torpaqların əldə edilməsi məqsədilə başlanan ərəb yürüşləri zamanı Mərkəzi Asiyada yaşayan oğuz-türk tayfaları Göy tanrıya inanır, özlərinə məxsus dini inanclarını qoruyub saxlayırdılar. İslam bayrağını türk oymaqlarına gətirmiş ərəblərin gəlişi dövründə yerli türk nəsilləri islam dini ilə ümumi şəkildə tanış olsalar da, Fransız türkoloqu Jan Pol Rui (1925-2009) hesab edir ki, “türklər pis müsəlmanlardı. Onlar qəbul etdikləri yeni dinləri haqqında çox az biliyə malik olduqlarından, din ilə maraqlanmırlar.” [15, 267]. Amerika tarixçisi, şərqşünas-türkoloq və islamşünas Peter Bencamin Goldenin (1941-) fikirlərinə əsasən, islamın Mərkəzi Asiyaya gəlişi qılınc və hədə-qorxu ilə deyil (tam olaraq olmadığını da deyə bilmərik), maddi, mədəni və mənəvi cəhətdən zəngin islam mədəniyyət nümunələrinin cazibəsi ilə Mərkəzi Asiyanın çöl əhalisinə təqdim edilmişdi. Hətta, islamı gücləndirən və əhali arasında yayılmasını təşkil edən mədrəsələr ilk olaraq Mərkəzi Asiyada yaranmış, sonra səlcuqilər tərəfindən Asiyanın qərbinə gətirilmişdi [18, 211]. Mərkəzi Asiyada yaşayan əhalinin əksəriyyətinin köçəri həyat tərzini, dini pərakəndəliyini nəzərə alaraq, islam dini dünyagörüşünün burada qəbulu çox asan olmuş, hesab edirik ki, müəyyən istisnaları nəzərə almasaq, ciddi müqavimət ilə rastlaşmamışdılar. Beləliklə, hərbi-siyasi istiqamətdə kifayət qədər təcrübələri olan oğuz-türk nəsilləri, o cümlədən onların bir qolu olmuş qaraqoyunlular tədricən tenqriçilikdən islama keçid etməyə başlayırlar. Beləliklə, Mərkəzi Asiyada artıq X-XI əsrlərdə əhalinin böyük hissəsi müsəlman olmuş və ilk olaraq islamı qəbul etmiş əhali türkmən adlandırılmışdı, lakin bu türkmən ailələrinin qatı müsəlman olaraq çıxış etdiyini deyə bilmirik. Daha çox hərbiyə diqqət edən oğuz türklərinin köçəri həyat tərzini də nəzərə alsaq, bu dönəmdə türkmənlərin tam bir müsəlman kimi çıxış etmələri mümkün deyildi. Elə bu səbəbdəndir ki, türklərin yaşadığı ərazilərdə islam dininin müxtəlif cərəyan, təriqət və qövmləri yaranmışdı. Mərkəzi Asiyada yaranıb ətraf bölgələrə sürətlə yayılan təriqətlərdən biri Yasəvilik idi ki, formalaşdığı bölgə ilə əlaqədar olaraq bəzən “Xorasan məktəbi” adlanır. Bu silsilə islam türk birliyinin formalaşması üzərindən yaranmış və birbaşa Mərkəzi Asiya türkmənləri ilə bağlıdır. Mərkəzi Asiya müəllifi Sənan Mehtinin qeydinə əsasən, yəsəvilik Mərkəzi Asiyanın türk əhalisi arasında daha çox yer almış və

onların vasitəsilə Anadoluya yayılmışdı. Yerli türk əhalinin sufi görüşləri, gəlmə türklərin dili və adət-ənənələri yəsəvilikdə birləşmişdi [25, 153]. Oğuz dövlətinin süqutu ilə böyük qism oğuz-türkmənləri, o cümlədən qaraqoyunlular qərbə doğru hərəkət edərkən qısa müddətlik Xorasanda məskunlaşmış, daha sonra Azərbaycan, oradan da Anadoluya hərəkət etmişdilər. Xorasanda ikən burada Yasəviliyin təsirinə məruz qalmış qaraqoyunlular Cənubi Qafqaz və Anadolu bölgələrinə özləri ilə birgə yəsəviliyi gətirmiş oldular. Buradan irəli gələrək sonrakı tarixi dönəmlərdə qaraqoyunluların dini etiqadlarında yəsəviliyin xüsusiyyətlərini - kamilləşməyə çalışma, doğruluq, ağıl, şeyxin dediklərini dərhal yerinə yetirmək kimi keyfiyyətlərə üstünlük verilməsini izləyə bilirik.

**2. "Türkmən şiəliyi".** Köçdükləri Cənubi Qafqaz və Kiçik Asiya da bu dönəmlərdə müxtəlif dini təriqətlərin yayıldığı ərazilər olduğundan yerli türk əhalisi ilə vahid dini birlik formalaşdırmağa çalışan gəlmə türkmənlər bir sıra çətinliklərlə üzləşdilər. Oğuzlar Azərbaycanda geniş yayılmış şiəliyin batinilik qoluna etiqad edən əhalinin təsirinə məruz qalırlar. Arayış olaraq qeyd edək ki, Batinilik Quran və sünnələrin gizli və aşkar mənalarının üzə çıxarılmasını dəstəkləyir, daha çox mistik, xəyali fikirlər üzərində qurulmuş şiəlik tərəfdarları hesab edilirdilər. Lakin, Yasəvilik və Batinilik kimi dini cərəyanlar fəlsəfi xarakteri ilə fərqlənir, siyasi mücadiləni nəzərdə tutmur, mübarizliyin əksinə sadə həyat tərzi, kamillik üzərindən tərki-dünyalığa üstünlük verirdi. Elə bu səbəbdəndir ki, hərbicil qaraqoyunluların dini görüşlərində digər cərəyanlara meyllilik izlənilir və batinilik cərəyanının təsiri ilə "qatı şiəliyə" doğru dini çevrilməyə məruz qalırlar. Qaraqoyunlu tayfa ittifaqına daxil olan bütün qövmləri bir dini cərəyan ətrafında birləşdirmək, həmçinin dini birlik üzərində siyasi sabitliyə nail olmaq üçün onların vahid dini dünyagörüşünə və onun üzərində qurulmuş siyasətə ehtiyac vardı. Belə olduğu təqdirdə yerli əhalinin də dini etiqadını özündə təzahür etdirəcək bir cərəyan olmalı idi. Gəlmə oğuz-türkmən tayfalarının formalaşdırdığı yeni dini qövm həm Anadolu sünniliyinin təsiri ilə nisbətən mülayim olub, fəlsəfi xarakteri ilə seçilir, həm də köhnə dini inancların qalıqlarını qoruyub saxlayırdı. İslamı yeni qəbul etmiş əhali üçün müəyyən səbəblərdən dolayı bu və ya digər dini cərəyana olan inamı dəyişmək, fərqli etiqad cəhətlərini qəbul etmək çətin deyildi. "Türkmən şiəliyi" olaraq təzahür edən bu dini cərəyan, nəinki Mərkəzi Asiyadan köç etmiş qaraqoyunlu və digər türkmən nəsillərində, eləcə də yerli türklərdə, türkləşmiş moğollarda etiqad olaraq qəbul edilirdi. İ.Petruşevskiyə əsasən qaraqoyunluların şiəliyi "xalq bidəti" hesab edilərək Əlinin müqəddəsləşdirilməsi ilə seçilirdi [24, 306-307]. V.Minorski XV əsrdə İran ərazisində geniş yayılmış qatı şiəliyin bir qolunu özlərini əhli-ilahi adlandıran qaraqoyunlulara aid edir. Osmanlı ərazisindəki qatı şiələri qızılbaş olaraq göstərir ki, onlar özlərini əhli-haqq adlandırırdılar [23, 45-46]. İ.Petruşevski və V.Minorskinin simasında Rusiya tarixçiliyi qaraqoyunluları daha mülayim şiə olaraq qəbul edirdilər.

Qaraqoyunluların şiəliyə meyl etməsi həm də Mərkəzi Asiyada gedən siyasi proseslər ilə sıx bağlıdır. Oğuz türklərinin digər qolu olan səlcuqilər Mərkəzi Asiyada siyasi mübarizədə Oğuz dövlətinə müxalif olub, hakimiyyət uğrunda mücadilədən geri çəkilməyə məcbur qalıb, Anadolu və Kiçik Asiya bölgələrinə köç etmiş, burada Oğuz dövlətinin qayda-qanunlarının hər birinə qarşı olub, hətta etiqad etdikləri şiəlikdən imtina edərək sünniliyi qəbul etmişdilər. İlk moğol yürüşləri zamanı oğuz-türkmən tayfaları olan qaraqoyunlular Oğuz dövlətinin qalıqları ilə birləşərək ümumi düşmənə - moğollara qarşı bir cəbhədə mübarizə apararaq, ciddi müqavimət göstərmişdilər. Hesab edirik ki, bu səbəbdən Qaraqoyunlu türkmənləri dini məzhəb məsələsində sünniliyə üstünlük vermiş səlcuqilər ilə deyil, oğuzlar ilə oxşar olmaqla şiəliyə inam göstərmişdilər. Bu dönəmlərdə el halında yaylaq-qışlaq təsərrüfatına malik olub köçəri həyat tərzi sürən qaraqoyunlu tayfalarını qatı şiə müsəlman olaraq çıxış etməsini əminliklə demək mümkün deyil.

Hülakülər dövlətinin fəaliyyətinə və idarəçilik xüsusiyyətlərinə diqqət etsək, Moğol yürüşləri və ilk Elxani hökmdarlarının dövründə dövlətin rəsmi dininin elan edilmədiyini, burada müəyyən dini cərəyanların təzahürlərini, hakimiyyətin və ona qarşı olan müxalif qüvvələrin bu təriqət fərqlərindən istifadəni açıq şəkildə görərik. Həmçinin, ilk Hülakülər dövründə əhalinin əksəriyyəti islama etiqad etsə də, elxanlar özləri köhnə dini inanclarında və şamanizmə etiqadda qalmaqda davam edirdilər. Elxani hakimləri yerli hakim nəsillərin dinlərinə toxunmur, hətta moğol qanunları əsasında islam qaydalarına əks olan türklərdəki ənənələrə (su ilə abdəstin alınması, belə ki, əski türk ənənələri suyun kirlənməsinə qarşıdı və ya heyvanın qanının axıdılması kimi qaydalar) güzəşt edilmişdi. Peter Golden hesab edir ki, türk dövlətlərinin formalaşmasında islamın həlledici rolu olmuşdu. Mərkəzi Asiyada, ardınca Yaxın və Orta Şərqdə islamı qəbul etmiş oturaq əhalini idarə etmək üçün islam dini mütləq faktor rolunu oynamışdı [18, 213]. Elxan hökmdarı Sultan Mahmud Qazan xanın (1295-1304) dini islahatı və ordu ilə birgə islamı qəbul etməsindən sonra mərkəzləşmə siyasəti yeridən hakimiyyət imperiya ərazisində dini konfessional vəziyyətin stabilləşməsinə, eləcə də Elxanilərin dini siyasətinin formalaşmasına gətirib çıxardı. Elxanilərin baş vəziri Fəzlullah Rəşədəddinin təklif etdiyi dini islahatın keçirilməsində məqsəd həm də yerli əhali ilə mərkəzi hakimiyyət arasında olan dini uçurumu və narazılıqları aradan götürmək idi. Bununla da, Elxani hakim dairələri islamın həm də birləşdirici funksiyasından öz dini siyasətlərində istifadə etmiş oldular. Sultan Məhəmməd Olcaytu xanın (1304-1316) hakimiyyəti dövründə Elxanilər dövlətinin rəsmi dini islamın şiəlik məzhəbi üzərində formalaşması başa çatdı. Beləliklə, Elxanilər dövlətinin ərazisində yaşayıb, onların təbəəliyini qəbuledən qaraqoyunlular arasında şiəliyin yayılmasını qanunauyğun bir proses hesab edirik.

Sosial-iqtisadi maraqlardan irəli gələrək qaraqoyunluların şiəliyi qəbul etməsi məsələsinə diqqət edək. İ.Petruşevskinin gəldiyi qənaətə əsasən, "İranda sünni-şafilər şəhərlərin yuxarı təbəqəsinin, yəni yerli əyan və onlarla bağlı iri tacirlərin etiqadı idi; sünni-hənəfilər şəhərin orta təbəqəsini, yəni orta tacirləri və sənətkarları əhatə edirdi; şiələr isə ətraflarda yaşayan kəndlilər və şəhər yoxsullarına aid edilirdi. Bununla da dini etiqad adı ilə əslində sosial təbəqələşmə gedirdi" [24, 142]. Bu səbəbdən də hesab edirik ki, köçəri maldarlıqla məşğul olan qaraqoyunlular XIV əsrin birinci yarısı üçün hələ oturaqlaşmamış, şəhərləşməmişdilər və onların yaşadıqları köçəri həyat-tərzinə görə onların şiəliyi qanunauyğun hesab edilməlidi. Həm də Kiçik Asiyaya gəlmə və yerli türklər arasında iqtisadi üstünlük uğrunda mübarizədə gəlmələr yerlilərdən seçilmək, onlar tərəfindən assimilyasiyaya uğramamaq və hərbi xarakterdən irəli gələrək qaraqoyunlular burada möhkəmlənmiş sünnilikdən fərqli cərəyana, yəni şiəliyə meyl etməyə başlamışdılar. İstər İ.Petruşevski, istərsə də V.Minorski və onların simasında Rusiya tarixçiliyində qaraqoyunlular şiə adlandırılır, iqtisadi-sosial cəhətdən şiəliyə etiqad edənlərin əksəriyyətinin şəhərlərdə xırda tacirlər və sənətkarlar, kənarlarda isə kəndli və köçəri əhalinin məşğuliyyətləri ilə əlaqələndirilir. İ.Petruşevski yerli əhalinin də şiəliyi qəbul etməsində və qaraqoyunlular ilə müttəfiqliyə daha bir iqtisadi səbəb kimi, vergilərin günü-gündən artırılması və yerli əhalinin bundan narazılığını göstərir. O qeyd edir ki, ilkin islami qaydalara qayıtmaq və bununla da şəriət qanunlarında yazılmayan vergilərin ləğv edilməsi tələbini irəli sürmək məqsədilə yerli əhali şiəliyi təbliğ edən gəlmə oğuz türk boylarına - qaraqoyunlulara qoşulmuşdular [24, 350-351]. Eyni zamanda, Kiçik Asiyada getdikcə möhkəmlənərək siyasi hökmranlığa çalışan qaraqoyunlular yerli hakimlər ilə açıq hərbi mübarizə üçün kifayət qədər qüvvələri yox idi. Yerli hakimiyyətdən narazı qüvvələri öz ətraflarında toplamağa nail olan Qaraqoyunluların artıq sınanmış dini siyasətinə ehtiyacı vardı. Hesab edirik ki, qaraqoyunlu tayfa birliyi öz dini siyasətlərində hakimiyyətlərini qəbul etdikləri Elxanilərin təcrübələrindən yararlanmışdılar. Moğolların V ulusu olan Hülakülər dövləti (1256-1357) daha çox türk mənşəli əhalinin yaşadığı torpaqları əhatə edirdi və dövlət yaranarkən onların təbəəliyini qəbul edən türkmən

qaraqoyunlular artıq Anadolu bölgələrində, Van ətrafında məskunlaşmışdılar. Qaraqoyunluların şiəlik bayrağı altında çıxış etməsi həm də Elxanilər tərəfindən olan siyasi təsirin göstəricisidir. Qaraqoyunlular əvvəlcə Elxanilərin, ardınca Moğolların xələfləri olan Cəlairilərin təbəəsi kimi siyasi mübarizə meydanında çıxış etsələr də, onlar dini siyasət məsələsində özünəməxsus xüsusiyyətlərini, konfederasiya - tayfa birliyi şəklində idarəçiliyini, köçəri təsərrüfatlarını və hərbi idarəçilik sistemini qoruyub saxlaya bilmişdilər. Əslində, islamı qəbul etməklərinə rəğmən Qaraqoyunluları tam olaraq qatı müsəlman qaydalarına riayət edən bir sülalə olaraq qiymətləndirə bilmərik. Belə ki, onların "türkmən şiəliyi" olaraq dinigörüşlərinə Yəsəvilik və Batinilik kimi fəlsəfi cərəyanların təsirindən dolayı bu təriqət fəlsəfi fikirləri və köhnə inanc qalıqlarını özündə saxlamaqla istər Anadoludakı osmanoğulları, səlcuqilər, istərsə də teymurilərin dini etiqadlarından fərqlənirdilər. Bölgədə hökmran olan Ağqoyunlu, Osmanlı və Teymurilərdən fərqli dini etiqadın qəbul edilməsi Qaraqoyunlular üçün həm də siyasi məqsədlər daşıyırdı, belə ki, Anadolu və Azərbaycanda hakimiyyətə gəlmək uğrunda mücadilədə Qaraqoyunlu türkmən sülaləsi artıq hakimiyyətdə olan sünni sülalələrə qarşı qüvvətli olmaq üçün onlardan narazı qüvvələri öz ətrafına toplayır, bununla da dini öz siyasi məqsədlər üçün istifadə etmiş olurdular. Türkiyə tarixçisi İ.Uzunçarşılı qeyd edir ki, Məmlüklər və Ağqoyunlular, şiə olmasına görə Qaraqoyunluların əleyhinə idilər. Bilxassə Ağqoyunlular ilə aralarındakı mübarizənin əsas səbəbi elə məzhəb fərqi olmuşdu [20, 186]. Əslində, hakim sülalələr arasında mövcud olan məzhəb fərqlərindən hər hansı bir məsələdə bir-birinin xeyrinə və ya qarşı istifadə olunması bütün dövrlərdə özünü göstərmişdi. Belə bir mövqe sonrakı dövrlərdə Qızılbaş Səfəvilərdə özünü daha açıq şəkildə biruzə vermişdi.

İlkin mənbələrə və tarixi ədəbiyyatlara müraciət etsək, Qaraqoyunlu bəyliyinin dövründə siyasi mücadilə ilə əlaqədar yetərincə məlumat əldə etsək də, təəssüflər olsun ki, dini siyasət və bəyliyin dini inancları ilə bağlı hər hansı fakta rast gəlmək mümkün deyil. Anadolu bəyliklərindən biri olaraq Qaraqoyunlular haqqında Türkiyə tarixçilərindən bir çoxu mövzu ilə bağlı dərin araşdırmalar aparmışdılar. Onların qaraqoyunluların dini məzhəb məsələsində məxsusluqları mübahisə doğurur. İ.Uzunçarşılı öz əsərində Qaraqoyunluların qatı şiə, hətta Batini olduqlarını qeyd etsə də [20, 286], Mehmet Fatih Bekirhan islamın ilk rəşidi xəlifələrə işarə olaraq "çihar yar" ("dörd sevgili") sözlərinin yazılmasını, əhlibeyt sevgisinin üstünlüyünü göstərən mədəniyyət nümunələrini, qaraqoyunlular arasında Ömər və Osman adlarına tez-tez rast gəlindiyini dəlil göstərərək qaraqoyunlu türkmənlərinin qatı şiə olmayıb, sünniliyə meyl etdiklərini bildirmiş [9, 202], Ali Bademçi isə qaraqoyunluların dini inanclarında şiəlik olduğunu, şəhərləşdikcə və Osmanlının təsiri ilə sünniliyə meyl etdiklərini söyləmişdi [2, 263]. F.Sümerin "Kara koyunlular" əsərində bəyliyin başçısı olan Qara Məhəmmədin Nasir-üd-din ləqəbi daşıdığı yazılır [16, 54]. Bildiyimiz kimi, "Nasir-üd-din" dinin-imanın köməkçisi deməkdir. Bəylik rəhbərlərinin din ilə əlaqədar ləqəbləri onların mömin müsəlman olaraq hakimiyyət sürdüyünü göstərmək, həmçinin əhali arasında nüfuz və hörmət qazanmaq, son qoyduqları hakimlərin tərəfdarlarına din üzərindən təsir etməklə onlara əks yönəlməsinin qarşısını almaq məqsədi daşıdığını deyə bilərik.

## *Nəticə*

Beləliklə, ilk yurd yerləri Mərkəzi Asiya olan qaraqoyunlular oğuz-türk qövmlərindən biri kimi islama qədər Göy tanrıya etiqad etmiş, sonrakı nın dövlət yarananadək qaraqoyunluların qəti olaraq hansısa bir islam məzhəbinə qulluq etdiklərini və daimi eyni məzhəb xüsusiyyətlərini nümayiş etdirdiklərini söyləmək mümkün deyil. Əlbəttə ki, VII-VIII əsrlərdə Mərkəzi Asiyaya başlanan ərəb yürüşləri zamanı islam dini ilə tanış olan oğuz-türkləri tez bir zamanda bu dini qəbul etsələr də, öz dini inanclarına dair bir çox xüsusiyyətləri saxlamışdılar. O cümlədən, müxtəlif dini fəlsəfi cərəyanlar olan Yasəvilik, Batinilik və s.

silsilələrin təsirinə məruz qalaraq özlərinə məxsus xüsusiyyətləri olan təriqət formalaşdırmışdılar. Qərbə doğru hərəkət edərkən Kiçik Asiya və Azərbaycanda məskunlaşan oğuz türkləri burada artıq qatı müsəlman əhali ilə üzləşirlər. İqtisadi maraqlardan irəli gələrək köçəri həyat tərzi sürən qaraqoyunlu tayfaları oturaq şəhər əhalisindən fərqlənmək və hərbi cəhətdən öz üstünlüklərini göstərmək məqsədilə şiəliyə meyl etməyə başlayırlar. Məzhəb üstünlüyü məsələsində qaraqoyunluların hərbi gücündən istifadə etməklə siyasi mübarizə aparan digər hakim sülalələrin təsirini də nəzərə almalıyıq. Öz növbəsində, siyasi hakimiyyət uğrunda mücadilə aparan qaraqoyunlular yerli hakimlərdən fərqli məzhəb mənsubiyyətindən istifadə etməklə müxalif qüvvələri öz ətrafında birləşdirmə ehtimalı da məzhəb seçimi məsələsində həlledici rol oynadı. Hesab edirik ki, bütün bu deyilənləri nəzərə alaraq, qaraqoyunlular Azərbaycanda islamın şiə məzhəbinə iman gətirmiş, lakin daha mülayim şəkildə çıxış etmişdilər.

## ƏDƏBİYYAT


1. Ahmet Korkmaz. Kara-Koyunlu devletinin askeri teşkilatı. İstanbul: Efeakademi Yayınları, 2022. 167 seh
2. Ali Bademci. İranda türklerin 1000 yılı. İstanbul: Yeditepe, 2018. 735 seh.
3. Ali Bademci. Şamanizmden Kızılbaşlığa Şiiliğin türkmen yüzü. Sosyolojik inceleme. Ankara: Çizgi Kitabevi Yayınları, 2019. 520 seh. (səh 266-286)
4. Azərbaycan tarixi üzrə qaynaqlar. Professor S.S.Əliyarlı və dosent Y.M.Mahmudovun redaktəsi ilə. Bakı: Azərbaycan Universiteti, 1989, 328 s.
5. Azərbaycan tarixi. 7 cilddə, III cild, Bakı: Elm, 1999, 584 s.
6. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər. Redaktor: Süleyman Əliyarlı, Bakı: Azərbaycan, 1996, 872 s.
7. Bakıxanov A. Gülüstani-İrəm. Bakı: Möminin, 2001, 287 s.
8. Beatrice Forbes Manz. Timurlu İranında İktidar, Siyaset ve Din. Çeviren: Dilek Şendil. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, 2013. 415 seh.
9. Bekirhan, Mehmet Fatih. Doğunun beyleri Kara Koyunlular. Ankara: Berikan Yayınevi, 2017. 232 seh.
10. Cəlilov E. Azərbaycanın dövlət və hüququ. Bakı: Dövlət Kitab Palatası, 1995. 420 səh.
11. Dinler tarihine giriş. Dinler-mezhepler-yeni dini hareketler. Prof. Dr. Mehmet Aydın. Konya: Literatürk, 2017. 335 seh.
12. Əkbərov R.A., Səlimov S.M. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı: "Qanun" nəşriyyatı, 2003-ci il. 532 səh.
13. Fakih ve Sultan. Osmanlı və Safevilerde Din-Devlet ilişkisi. Prof. Dr. Vecih Kevserani. 1. Baskı: İstanbul, İşaret yayınları, 2017. 224 seh.
14. İlgar Baharlu. Şahın Bahçesinde. Şah İsmail öncesi ve sonrası Kızılbaşlık. 1. Baskı. İstanbul, "KİTABEVİ" yayınları, 2021. 240 seh. (səh 31-34)
15. Jean Paul Roux. Orta Asiya. Tarih ve Uygarlık. Çevirmen: Lale Arslan Özcan. İstanbul: Kabalcı Yayıncılık, 2014. 495 seh.
16. Kara Koyunlular (Başlangıçtan Cihan-Şaha kadar). I. Cilt. 2. Baskı. Prof. Dr. Faruk Sümer. Ankara: Türk Tarih Kurumu Basımevi, 1984. 169 seh.
17. Muhsin Behramnejad. Karakoyunlular Akkoyunlular. İran ve Anadoluda Türkmen hanedanları. Tercüme ve notlar: Serdar Gündoğdu, Ali İçer. İstanbul: Kronik Kitap, 2019. 144 seh.
18. Peter B. Golden. An Introduction to the History of the Turkic Peoples. Ethnogenesis and State-Formation in Medieval and Early Modern Eurasia and the Middle East. Wıesbaden: Otto Harrassowıtz, 1992, 494 pp.

19. Safeviler Kültür-Diplomasi-Toplum. Editör Mehmet Dağlar. 1. Baskı. İstanbul, "KİTABEVİ" yayınları, 2021. 189 seh.
20. Uzunçarşılı, İsmail Hakkı. Anadolu beylikleri ve Akkoyunlu, Karakoyunlu devletleri. 7. Baskı. - Ankara: Türk Tarih Kurumu, 2019. 297 seh.
21. Yüksel, Musa Şamil. Timurlularda din-devlet ilişkisi. – 2. Baskı. - Ankara: Türk Tarih Kurumu, 2021. 252 seh.
22. Бартольд В. История изучения Востока в Европе и России. Лекции читанные в Университете и в Ленинградском Институте Живых Восточных языков. Издание второе. Ленинград, 1925 // https://elib.rgo.ru/safe-view/123456789/212113/1/UnVQUkxJQjEyMDg0Mzc4LlBERg==
23. Минорский В.Ф. Материалы для изуения персидской секты люди истины или Али-Илахи. Ч.I. Москва: Труды по Востоковедению издаваемые Лазаревским Институтом Восточных Языков Вып. XXXIII, 1911. 127 стр. http://web2.anl.az:81/read/page.php?bibid=34859&pno=45
24. Петрушевский И.П. Ислам в Иране в VII—XV веках (курс лекций) / Отв. редактор В.И.Беляев. — Л.: Издательство Ленинградского университета, 1966. — 400 с.
25. Санан Мехти. Путь Ясави и его роль в развитии ислама в Центральной Азии // Вестник Челябинского государственного университета: журнал. - Челябинск, 2007. - № 23. - С. 150-159


УДК 94(479.24).

*кандидат наук., Захра Рустам кызы Исламова*
*Бакинский Государственный Университет*

# О РЕЛИГИОЗНОЙ ПРИНАДЛЕЖНОСТИ КАРАКОЮНОВ

## *РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджан, тюрки-огузы, Каракоюнлу, религиозная секта, шиизм, Средняя Азия

В средние века в Азербайджане существовала религиозная политика, которой руководствовались правящие династии в политическом, экономическом, социальном и культурном направлениях. Одной из огузо-тюркских династий, пришедших к власти в Азербайджане в XV веке, была Каракоюнлу. Религиозные мировоззрения огузов-тюрков, их доисламские верования, как, когда и при каких политических условиях они приняли ислам, различия между сектами и течениями среди тюркских народов, а также сохранение некоторых старых верований считаются одна из основных тем исследований, стоящих перед современной Азербайджанской историографией. В первоисточниках, в том числе в исторической литературе, вопрос о религиозной принадлежности народа Карагоюн как огузо-тюркской династии остается одной из проблем, оставшихся открытыми. В ходе исследования, согласно источникам и исторической литературе того времени, было исследовано принятие ислама карагоюнским народом, сыгравшим ключевую роль в государственности Азербайджана, а также изучена конфессиональная ситуация, религиозные воззрения и переходы в ислам в Средней Азии, Малой Азии и Азербайджане. Основное внимание уделяется исследованию религиозных верований и сект карагоюнцев, после прибытия вокруг Вана, а также религиозных верований и сект, к которым они принадлежали после прихода к политической власти в Азербайджане. Также была предпринята попытка определить влияние и отражение религиозной принадлежности членов династии Каракоюнлу в государственном управлении.

UDC 94(479.24).

*Ph.D, Zahra Rustam Islamova*
*Baku State University*

ABOUT THE RELIGIOUS AFFİLİATİON OF THE GARAGOYUNS

*SUMMARY*

*Key words:* Azerbaijan, Oghuz Turks, Karakoyunlu, religious sect, Shiism, Central Asia

In the Middle Ages, there was a religious policy in Azerbaijan, which guided the ruling dynasties in political, economic, social and cultural directions. One of the Oguz-Turkic dynasties that came to power in Azerbaijan in the $15^{th}$ century was the Garagoyunlu. The religious worldviews of the Oghuz Turks, their pre-Islamic beliefs, how, when and under what political conditions they adopted Islam, the differences between sects and movements among the Turkic tribes, as well as the preservation of some old beliefs are considered one of the main research topics facing modern Azerbaijani historiography. In primary sources, including historical literature, the question of the religious affiliation of the Garagoyun tribes as an Oghuz-Turkic dynasty remains one of the problems that remains open. During the study, according to the sources and historical literature of that time, the adoption of Islam by the Garagoyun dynasty, who played a key role in the statehood of Azerbaijan, was examined, and the confessional situation, religious views and conversions to Islam in Central Asia, Asia Minor and Azerbaijan were also studied. The main attention is paid to the study of the religious beliefs and sects of the Garagoyuns after arriving around Van, as well as the religious beliefs and sects to which they belonged after coming to political power in Azerbaijan. An attempt was also made to determine the influence and reflection of the religious affiliation of members of the Garagoyunlu dynasty in government administration.

***Daxil oldu: 13.02.2025-ci il***